# Əgər hər hansı bir dəvənin boynunda kaman ipi və ya boyunbağı varsa o kəsilib atılsın

Əbu Bəşir Əl-Ənsaridən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: O, Allah Rəsulu ilə (Allahın salavatı və salamı onun üzərinə olsun) bəzi səfərlərdə bir yerdə olmuşdur və deyir ki, günlərin birində: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanlar gecələdikləri yerdə ikən onlara bir elçi göndərərək belə əmr etdi: " Əgər hər hansı bir dəvənin boynunda kaman ipi və ya boyunbağı varsa o kəsilib atılsın."

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəzi səfərlərində yolda dayanıb gecələyər, səfərdə onu müşayət edən insanlar da dayandığı yerlərdə və çadırlarda gecələyərdilər. Belə gecələrin birində o (Allahın salavatı və salamı onun üzərinə olsun) bir nəfər göndərərək o insanlara, dəvəyə asılan boyunbağıları - bu boyunbağılar istər yay oxundan, istərsə də zəng və s.kimi əşyalardan olsun - kəsmələrini əmr etdi. Çünki insanlar göz dəymədən qorunmaq məqsədilə həmin əşyaları dəvələrinin boyunlarından asırdılar. Bu səbəbdən də onlara bu əşyaları qırmaq əmr olundu. Çünki bu əşyalar nəyisə dəf edib, insanları qorumaz , fayda və zərər isə yalnız şəriki olmayan Allahın əlindədir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee